# ŞƏHİDƏ ELEGİYA

Bu yazını qələmə alana qədər nələr çəkdiyimi sinəsi dağlılar, ürəyi ana naləsi, bala dərdi ilə çalın-çarpaz olanlar bilər. Qətibəni bacım qədər sevər, ruhu Vətən göylərində dolaşan bircə balası Fəridi isə doğma balam bilərdim.

Belə bir ailənin faciəsi barədə söz açmaq mənim üçün nə qədər əzablı olsa da, bir az ruhi dinclik tapıb əzabkeş anaya və yeri cənnətlik olan balaya mənəvi borcumu verim deyə göz yaşlarıma boğula-boğula bu sətirləri yazıram.

* * *

Qətibə xanım Şabanova mənim uşaqlıq rəfiqəm, hazırda dostluq etdiyim nəcib, ləyaqətli, ürək qızdırdığım insanlardan biridir. Biz bir şəhərdə, eyni məhəllədə böyüyüb boya-başa çatmışıq. Gözümüzü açıb özümüzü dərk edəndən valideynlərinizi yaxın dost, həmdərd, bir-birinin xeyir-şərinə yarayan görmüşük. Bu dostluğu daha sonra qardaşlıarımız və biz bacılar davam etdrmiş, şükür İlahiyə ki, bu təmənnasız və minnətsiz dostluq bu gün də davam etməkdədir.

Qətibə xanım sayılıb-seçilən, el arasında nüfuz sahibi olan bir ailədə dünyaya gəlib, qayğısız uşaqlıq və gənclik illəri keçirib. Qismət elə gətirib ki, biz Moskva şəhərində yaşayanda da onların ailəsi ilə qonşuluq etmiş, qərib ölkədə daha da qaynayıb-qarışaraq bir evli kimi olmuşuq. Moskvada yaşadığımız illər ərzində dərdimiz-sərimiz, sevinc və kədərimiz bir idi, bizə baxıb həyat yoldaşlarımız da dostluq edir, bir-birilərindən qayğılarını əsirgəmirdilər. Ailəvi yaxınlığımız və bir-birimizi başa düşüb dəyərləndirməyimiz qürbətin sıxıntılarını az da olsa bizə unutdururdu.

1992-ci ilin sentyabr ayının əvvələrində Gəncədən şad bir xəbər aldıq. Sentyabrın 3-də Akif bəylə Qətibə xanımın dünyası işıqlanaraq nura qərq olmuş, Allah-taala ailəyə gözəl-göyçək bir övlad bəxş etmişdir. Təbii ki, sevinən ailələrdən biri də bizim ailəmiz oldu. Gəncəyə gedə bilməsək də, teleqramla gözaydınlığı verdik.

Valideynlər nur topası kimi gözəlgöyçək ciyərparalarına Fərid adı qoydular. Fərid, nağılllarda deyildiyi kimi, illə yox, günlə, ayla böyüyüb igid bir oğlan oldu. Görənlər deyirdi ki, sanki pəhləvandı.

Boylu-buxunlu, mələk simalı Fərid bala həm də ağıllı və mərifətli, xoş rəftarlı gənc idi. Kökdən gələn comərdlik və aldığı tərbiyə yaxşı mənada onu taytuşlarından fərqləndirirdi. Dili söz tutandan hər kəslə ədəb-ərkanla danışar, böyük-kiçik yerini bilər, qayğısını kimsədən əsirgəməz, yıxılana dayaq durar, güclünün, arxalının yanında yox, arxasızın, zəifin yanında yer alardı.

Dərrakə və düşüncələri, əməlləri ilə zamanını qabaqlamışdı. Onunla yoldaşlıq edib həmsöhbət olanlar heyrətini gizlədə bilmir, onu Allah vergisi adlandırırdılar. Dostları çox idi. Uşaqla uşaq, böyüklə böyük idi.

Anası onun 10-12 yaşında ikən söylədiyi aşağıdadı sözləri tez-tez xatırlayır: "Ana, bu dünya müvəqqəti, axirət dünyası isə əbədidir. İnsan gərək bacardıqca yaxşılıq edib əl tutsun, axirətini sağlığında, bu dünyada qazansın".

Anası və yaxınlarının dediklərindən, elə mənim də müşahidəmə görə vardövlət əsiri olub dünyadan dörd əlli yapışanlara, "dünya mənimdir" deyənlərə Fəridin yazığı gəlirdi. Tanrı ona qibtədici bir xasiyyət vermişdi, pislikdə belə yaxşılıq arayırdı. Niyyəti xoş, məqsədi işıqlı idi. Səhvləri bağışlamağı bacarırdı.

Ən xoşlamadığı adamlar ürəyində Allah xovfu, Vətən və ana sevgisi olmayanlar idi. Hər şeyi bağışlamağa qadir olan Fərid anasına qarşı edilən hər hansı bir naqis hərəkti bağışlamaz, hərəkəti edənləri vaxtında və yerindəcə dəf etməyi, haqsızı qandırmağı bacarırdı.

Baş vermiş bir əhvalatı burada xatırlamağı lazım bilirəm. Yaşadıqları məhəllədə çox keyfiyyətsiz bir ailə var idi. Evlərində baş verən hər xırda bir işi bəhanə edib səslərini qaldırar, səs-küyləri məhəlləni başına götürər, dillərinə sahiblik edə bilməyib nalayiq sözlər işlədərdilər. Bəzən elə olardı ki, ailədaxili söz-söhbət qonum-qonşu narazılığına səbəb olar, Qətibə xanım etirazını bildirəndə ona da köntöy cavablar verilərdi. Qətibə xanım bütün bunlara səbrlə dözər, oğlununun bu işlərdən xəbərdar olmasını istəməzdi. Bir gün belə bir hadisə Fərid evdə olarkən təkrarlanır. Əsəbləri tarıma çəklİən Fərid ədəbsiz qonşulara elə dərs verir ki, hadisə bir daha təkrarlanmır, məhz belə bir oğlu olduğu üçün hamı Qətibə xanıma baş əyib Tanrıdan bu gəncə salamatlıq və xoşbəxtlik diləyirlər.



*Şəhid Fərid Şabanov döyüş bölgəsində*

Xislətindəki mərdlik, kişilik onu hərb sənətinə meyilləndirmişdi. Həqiqi hərbi xidməti başa vurandan sonra Vətəni, vətəndaşları qorumağı özünə şərəf işi hesab edən Fərid döyüş bölgəsindəki orduda qalıb xidmətini davam etdirməyi qərara aldı. Beləliklə, onun döyüş yolu başlandı.

**Fəridin tərcümeyi-halından:**

Fərid Akif oğlu Şabanov 1992-ci il sentyabr ayının 3-də qədim Gəncə şəhərində, ulu Nizami Gəncəvinin yurdunda dünyaya göz açıb. Üç yaşında ikən ailələri Rusiyaya köçüb. 1999-cu ildə Moskva şəhərinin yaxınlığında yerləşən Lipisk şəhərindəki məktəblərin birində birinci sinfə gedib. İbtidai təhsilini orada alıb. 2004-cü ildə ailələri Azərbaycana qayıdıb və Fərid təhsilini Gəncə şəhərindəki 18 saylı orta məktəbin rus bölməsində davam etdirib. Gələcəkdə hərbçi olmaq arzusunda olan Fərid 2010-cu ildə həqiqi hərbi xidmətə çağırılıb. O, Sumqayıt şəhərindəki 302 saylı hərbi hissənin silah-sürsat bazasında manqa komandiri kimi xidmətə başlayıb. Bir müddətdən sonra Bibiheybətdə kəşfiyyat kursu keçərək kəşfiyyatçı bacarıqlarına yiyələnib. Kursu bitirdikdən sonra, yəni 2012-ci ildə Ağcabədidəki 161 saylı hərbi hissəyə təyinat alıb və oradan birbaşa Beyləqanda yerləşən 218 saylı kəşfiyyat bölməsinə göndərilib. Daha sonra hərbi xidmətini 218 saylı hərbi hissədə davam etdirib. Hərbi hissədə bacarıqlı, hərb sənətinin, xüsusilə kəşfiyyat və əks-kəşfiyyatın sirlərini dərindən bilən, torpağına, vətəninə bağlı olan bir hərbçi kimi hörmət qazanıb. Düşmənin bir çox təxribatlarının qarşısının vaxtında və itkisiz alınmasında lazımı xidmətlər göstərən Fərid 2016-cı il aprel döyüşlərində əsl qəhrəmanlıq göstərmiş, Vətənin harayına səs verərək yağı düşmənin ayağı torpaqlarımızdan bir dəfəlik çəkilməyincə, silahı əlindən yerə qoymayacağına bir daha and içmişdi. Hesab edin ki, bu misralar da o zaman onun dilindən səslənmişdi:

-

,

* * *

Növbəti çətin və təxirəsalınmaz döyüş tapşırıqlarının birini yerinə yetirərkən Fərid Şabanov 22 iyul 2018-ci ildə Beyləqan rayonundakı N saylı hərbi hissədə qəhrəmancasına şəhid olmuş, Gəncə şəhərinə gətirilərək şəhidlər xiyabanında canından artıq sevdiyi torpağa tapşırılmış və beləcə Vətən adlı anasına qovuşmuşdur.

Xidmət etdiyi 218 saylı hərbi hissədə qəhrəmanlıq, millətə, vətənə sədaqət rəmzi olaraq Fərid Şabanovun büstü qoyulub.

Fəridin şəhidlik zirvəsinə qalxmasından sonra dostları, hərbçi yoldaşları onun ruhunu daim yad edir, bu igid, cəsur qəhrəmanın anasının yaralarına məlhəm olmaq üçün Qətibə xanımı tək qoymur, oğulluq borcunu yerinə yetirməyə çalışırlar. Hərbçi yoldaşlarından mayor Rəşad Gülməmmədov, mayor Ziya Kazımov, kapitan Elşən Dadaşov, dostlarından Vüsal Şirinov, Nicat Süleymanov, Elçin Quliyev tez-tez Qətibə xanıma baş çəkir, mümkün qədər onun yaralı qəlbini ovutmaq istəyirlər.

Qətibə xanımın vəfalı dostlarından olan Şəhla xanım Bayramova, Kəmalə xanım Teymurova, yaxın qonşularından olan Səidə xanım onu tək qoymur, dərd-sərinə şərik olmağı özlərinin insanlıq vəzifəsi hesab edirlər.

Fəridi sevənlər, hələ də onun yoxluğuna inanmayan sevimli xalaları Soltan-xanım xanım, Zəhra xanım, Lətifə xanım, dayısının həyat yoldaşı Yeganə xanım, dayısı və xalası oğlanları Nicat, Ceyhun, Xəzər, bacısının gəlini Məhparə xanım, Fəridin dayısı Əli, xalası qızı



*Qətibə xanım Beyləqan rayonunun Qəhrəmanlı kəndindəki 218 saylı kəşfiyyat hissəsində oğlu Fəridə qoyulmuş büstün qarşısında*

Samirə, dayısı qızı Arifə Fəridin əbədiyyətə qovuşması ilə hələm-hələm barışa bilmir, təskinliyini onda tapırlar ki, o, Vətən uğrunda, Azərbaycan yolunda qəhrəmancasına şəhid olub. Onlar yaxşı bilirlər ki, şəhidlər ölmür və onların ruhu Vətəni qorumaq üçün daim oyaqdırlar.

Samirə xanım Qətibə xanımın qız övladıdır, desəm, yanılmaram. Ailəli olmasına baxmayaraq, demək olar ki, hər gün xalasına baş çəkir, onunla dərdləşir, bölüşür, onun bulaq kimi axan göz yaşlarını silir, hər zaman ona dəstək olur.

Arifə xanımı da Qətibənin qardaşı qızı yox, öz doğma balası hesab etmək olar. İstanbul şəhərində yaşayan Arifə xanım Fəriddən sonra Fəridin ad günündə, ildönümündə, hər bayramda əkiz uşaqları ilə Gəncəyə gəlir, Fəridin məzarını ziyarət edir. O, gəlişinin birində bibisini yalvar-yaxar İstanbula aparır, həkimlərə göstərir, müalicəsi ilə məşğul olur. Deyir ki, səni tək saxlasam Fəridin ruhu məndən inciyər və mənim onun şəklinə baxmağa belə üzüm gəlməz.

Fərid Krasnodar şəhərində yaşayan, gözəl, göyçək, mələk xislətli Aida xanıma nişanlı idi. Çox böyük arzularla yaşayan bu iki gənc, nə yazıq ki, istəklərinə qovuşa bilmədi. Birini anamız torpaq ağuşuna aldı, biri də sinəsi dağlı, gözləri yaşlı qaldı. Fəridin yoxluğuna inanmayan, gözləri daim yol çəkən Aidənin indi də bu bayatı dilindən düşmür:

Təbii ki, bu yoxluqla barışa bilməyən, hər zaman, hər an odsuz-ocaqsız yanan, tüstüsü ərşə bülənd olan dərdli anadır. Kəlməbaşı onun adı ilə sayaqlayan, inləyən, ağlamaqdan göz yaşları quruyan odur. Qohum-əqrəba, dost-tanış arasında özünü təmkinli aparmağa çalışsa da, tək olduğu vaxt bunları bacarmır. Fəridin izinə düşərək Sumqayıta, Bibiheybətə, Ağcabədiyə, Beyləqana gedir. Axtardığını tapmağa gümanı olmasa da axtarır, onun ətrini balasının gəzdiyi yerlərdən, döyüş dostlarından almaqla təsəlli tapır. Şəhidlər xiyabanının hər daşı, gülü, çiçəyi ona tanışdır, doğmadır. Fəridin baş daşını qucaqlayıb onunla dərdləşir, gül kimi balalarımızın şəhid olunmasında günahkar olanları lənətləyir, övladına qovuşmağa tələsir, lakin Allahına asi olmur. "Şükür kərəminə, İlahi, verən də sənsən, alan da sən",- deyə balasına və bütün şəhidlərə rəhmət, məmləkətimizə əmin-amanlıq, millətimizə salamatlıq diləyir və tez-tez bu bayatıları - ağıları dodaqaltı zümzümə edir:

Dərdini içinə salıb yaraları qövr edən, oğlunun xəyalı ilə yaşayan dərdli ananın Fəridin ruhuna ünvanladığı, hamıdan gizli saxladığı bir məktub əlimə keçdi. Sahibindən icazəsiz bir şeyi götürməyin yaxşı iş olmadığını bilsəm də, məktubu götürdüm, göz yaşlarımla boğula-boğula oxudum və qaytarıb yerinə qoymadım. Uzun müddət gizli saxladığım, çox çək-çevirdən sonra aşakara çıxardığım məktuba görə Qətibə bacımdan da, Fəridin ruhundan da üzr istəyirəm. Budur həmin məktub:

"Sən gedəli günüm ay oldu, ayım il oldu. Sən gedəli aylar da, fəsillər də elə tez-tez gəlib keçir ki... Get-gedə hər şey dəyişir... Gedən gəlir, gələn gedir... Bircə sən gəlib çıxmırsan. Gedişinlə heç vaxt barışmadığım kimi, bir daha qayıdacağına da inanmağım gəlmir... İnsan qəribə məxluqdur: İtirdiklərinin vurduğu yaralar həmişə təzə imiş deyə uzun müddət həmin itkiləri qəbul etmir. Alla-

# ŞƏHİDƏ ELEGİYA

Həmişə də ümid edir ki, günlərin bir günü itirdiyini mütləq tapacaq, uzun ayrılıqdan sonra göz görə-görə öz əlləri ilə yola saldığı ciyərparası bir möcüzəymiş kimi qəfil qarşına çıxacaq, gülə-gülə göz yaşına boğulan doğmalarına sarılacaq, bu müddət ərzində harada olduğuna aydınlıq gətirəcək, onların gözlərini yolda qoymasına, yaşamaq əzabına, məşəqqətli günlərinə axır ki, son qoyacaq... Qayıdacaq, mütləq qayıdacaq...

Axı sən bu qədər insafsız ola bilməzsən, oğlum! Gedişin nə uzun çəkdi, de, niyə qayıtmırsan? Sənin bu qədər dönüklüyünə inanmaq olmur, Fəridim....

Bax, sən gedəli hər şey dəyişib. Vaxt, zaman da həminki deyil. Yaz gəlir, elə bil ağaclar tumurcuqlamır. Doğmalarının, dostlarının həsrətli gözləri hər yerdə səni arayır... Payız gəlir, sanki ağaclar da ürəyimiz ayağımızın altına düşürmüş kimi tökür yarpaqlarını. Yelkənsiz gəmi, suzuz balıq, qanadsız quş necədirsə, biz də eləyik. Fəridim, ciyərparam!... Gəl.

Elimizin, obamızın qeyrətli oğlu, Fərid! Sən əbədiyaşarsan. Sən öz şücaətinlə özünə əbədi heykəl qoydun. Həmişə bizimləsən. Dünən də, bu gün də, sabah da. Hər birimiz səni doğan Qətibə ananın və sənin qarşında baş əyirik.

Yerin cənnətlik, ruhun şad olsun!



Söz ardı: Bu yazını redaksiyaya göndərməyə hazırlaşarkən Qətibə xanımdan zəng gəldi. Bildird[i] ki, Fəridin döyüş dostları onu Gəncədən Bakıya gətirmiş, ağlamaqdan tutulmuş gözünü əməliyyat edirəcəklər. Təcili müalicəxanaya - Qətibə Şabanovanın əməliyyat olunacağı “Dobromed” klinikasına yollandım.

Beyləqan rayonundakı 212 saylı hərbi hissənin komandiri general-mayor Mayis Bərxudarovun birbaşa dəstəyi ilə mayor Rəşad Gülməmmədov, gizir İlyas Nəsirov, çavuş Səbuhi Kəlbiyev Fərid balamızın anasını Mərkəzi Klinik Hospotalın göz həkimi Samir Musayevin əməyi ilə əməliyyat etdirdilər, ananın ağlamaqdan nurunu irirmiş gözlərinə yenidən işıq verdilər. Əməliyyat çətin keçsə də uğurlu alındı, nəticəsi müsbət oldu.

Əməliyyatdan sonra mayor Rəşad Gülməmmədova yaxınlaşıb minnətdarlıq etdim. Cavabında dedi ki, Fərid bizim qardaşımız id[i] və Qətibə ana da bizim anamızdır. Bu bizim Fəridin qarşısında qardaşlıq, Qətibə ana qarşısında övladlıq borcumuzdur. Başda general Mais Bərxudarov olmaqla biz həmişə anaya dəstəkik və borcumuzu bundan sonra da yerinə yetirəcəyik. Daha sonra həkim Samir Musayev bizə yaxınlaşdı. Həyəcan içində olduğunu bildirdi. Dedi ki, xəstənin Fəridin anası olduğunu biləndən sonra həm məsuliyyətim, həm həyəcanım artdı. Çox şükür ki, hər şey ürəyimcə oldu. Sizi də, lap elə özümü də təbrik edirəm.

Beləcə, dostlarının, döyüş yoldaşlarının dəstəyi ilə nuru sönməkdə olan ananın gözlərinə təzədən işıq gəldi.

Qətibə xanım əməliyyatdan sonra həkimləri, yaxınları və Fəridin döyüşçü dostları arasında.

17 dekabr 2017-ci il

Yaşasın yaxşılıq və xeyirxahlıq. Yaşayaq ki, yaşadaq. Unutmayaq ki, unudulmayaq.




*Təranə Abdullayeva*
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru, dosent, AYBİ-nin üzvü*
*17 dekabr 2019-cu il*